**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin**
**2025-ci ilin yekunlarına dair**

# MƏTBUAT BURAXILIŞI

26.12.2025

## Giriş

2025-ci ildə beynəlxalq münasibətlər sistemində artan geosiyasi gərginliklər, qlobal təhlükəsizlik arxitekturasında baş verən dəyişikliklər və qeyri-müəyyənliklər fonunda, daxili sabitlik və davamlı inkişafa arxalanan Azərbaycan Respublikası beynəlxalq hüququn norma və prinsipləri əsasında Azərbaycan Respublikası Prezidentinin qətiyyətlə yürütdüyü müstəqil və praqmatik xarici siyasət kursunu uğurla davam etdirib.

Azərbaycan Respublikasının milli maraqlarının təmin olunması məqsədilə ölkəmiz dəyişən geosiyasi şəraitdə çevik, məsuliyyətli və konstruktiv diplomatiya həyata keçirərək ikitərəfli və çoxtərəfli münasibətlərində əməkdaşlıq mexanizmlərini gücləndirib, beynəlxalq səviyyədə nüfuzunu və təsir imkanlarını nəzərəçarpacaq dərəcədə artırıb.

Şanlı zəfərimizin, ərazi bütövlüyümüzün və tarixi ədalətin bərpasının 5 illiyinin qeyd olunduğu 2025-c ildə regionda dayanıqlı və qalıcı sülhün bərqərar edilməsi üçün yaranmış tarixi fürsətlərdən istifadə edərək, Azərbaycan və Ermənistan arasında suverenlik və ərazi bütövlüyü prinsipləri əsasında münasibətlərin normallaşdırılması ölkəmizin regiondakı siyasətinin əsas istiqamətlərindən biri olub.

8 avqust 2025-ci il tarixində Azərbaycan, Amerika Birləşmiş Ştatları (ABŞ) və Ermənistan liderlərinin iştirakı ilə Vaşinqtonda baş tutmuş Zirvə görüşündə Azərbaycan və Ermənistan liderləri tərəfindən, habelə şahid qismində ABŞ Prezidenti tərəfindən imzalanmış Birgə Bəyannamə, habelə “Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş” layihəsinin paraflanması və digər razılıqlar bölgəmizdə yeni geosiyasi reallıqların formalaşmasına, regionda dayanıqlı sülh və inkişaf üçün əlverişli şəraitin yaranmasına imkan verib.

Vaşinqton Sammitində həmçinin Azərbaycan Respublikasının əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsini nəzərdə tutan “Beynəlxalq Sülh və Rifah Naminə Tramp Marşrutu” (TRIPP) layihəsi üzrə razılıq əldə edilib. Bununla yanaşı, ATƏT-in Minsk Prosesinin və əlaqədar strukturların bağlanmasına nail olunub, bununla Ermənistan ilə Azərbaycan arasındakı münaqişənin beynəlxalq gündəlikdən çıxarılmasına dair mühüm mərhələ tamamlanıb.

Azərbaycan Respublikası 2026-cı ildə sülh prosesini daha da irəlilətmək məqsədilə ikitərəfli, birbaşa və prinsipial dialoqa sadiq qalacaq. Bu kontekstdə, artıq paraflanmış sülh sazişinin imzalanması və ratifikasiyasını təmin etmək üçün Ermənistanın Konstitusiyasında Azərbaycana qarşı hələ də mövcud olan ərazi iddialarının aradan qaldırması və TRIPP layihəsi üzrə maneəsiz əlaqənin təmin edilməsi ilə bağlı öhdəliklərin tam icrası xüsusi əhəmiyyət kəsb edir.

2025-ci ildə Azərbaycan dünyada sülh, təhlükəsizlik və dayanıqlı inkişafın təmin olunmasına öz müsbət töhfəsini verib və bu çərçivədə müvafiq müraciətlərə uyğun olaraq bir sıra ölkələr arasında diplomatik vasitəçilik missiyalarını həyata keçirib.

İl ərzində ölkəmiz çoxtərəfli əməkdaşlığın təşviqi, qlobal çağırışlara çevik və effektiv reaksiyaların verilməsi, beynəlxalq yardım fəaliyyətləri, beynəlxalq iqtisadi əməkdaşlıq və iqlim diplomatiyası istiqamətində fəaliyyətini davam etdirib.

2025-ci ildə Türk Dövlətləri Təşkilatının (TDT) Zirvə görüşü keçirilib və sədrlik Azərbaycana keçib. Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə (AQEM) sədrliyimiz, Qoşulmama Hərəkatı (QH) üzrə Troyka üzvü və milli qisimdə Hərəkat

daxilində fəal işlər uğurla davam etdirilib. İqtisadi Əməkdaşlıq Təşkilatı (İqƏT) çərçivəsində Xankəndidə Zirvə görüşü zamanı uğurlu nəticələr əldə olunub. Ölkəmizdə bununla yanaşı, İqƏT Həftəsi keçirilib, Təmiz Enerji Mərkəzi təsis edilərək fəaliyyətə başlayıb. D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının Bakıda keçirilən D-8 Həftəsi çərçivəsində komissarların qeyri-rəsmi iclası, iqlim və şəhərsalma üzrə nazirlər dialoqu, D-8 Media Forumu, eləcə də D-8 Gənclər Dialoqu təşkil olunub, təşkilatın strateji sənədlərində əks olunan prioritetlərə uyğun olaraq D-8 Enerji və İqlim Mərkəzi, D-8 Nəqliyyat Mükəmməllik Mərkəzi və D-8 Media Mərkəzinin Azərbaycanda yaradılması barədə razılıq əldə olunub.

Azərbaycanın regional sülh, təhlükəsizlik və rifah üçün əldə etdiyi bu son mühüm nəticələr qətiyyətli və uzaqgörən liderlik, diplomatiya və strateji əməkdaşlıq vasitəsilə əldə edilib. Azərbaycan regionun aparıcı dövləti, beynəlxalq münasibətlərdə etibarlı tərəfdaş və sülhün təşəbbüskarı kimi qəbul olunur. Bu, dövlətçiliyimizin möhkəm əsaslarının, iqtisadi gücümüzün və xalqımızın birliyinin təntənəsidir.

## Xarici dövlətlər ilə ikitərəfli münasibətlər

2025-ci ildə də Azərbaycan Respublikasının xarici siyasətində **qonşu dövlətlər** ilə münasibətlərin inkişafına xüsusi önəm verilib, Türkiyə, İran və Gürcüstandan Azərbaycana ali və yüksək səviyyəli səfərlər həyata keçirilib, Türkiyə, İran, Rusiya, Gürcüstan ilə iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası və qurumlararası mexanizmlər çərçivəsində müntəzəm iclaslar təşkil olunub. Müttəfiqlik əlaqələrinə malik olduğumuz Türkiyə ilə intensiv təmaslar davam edib. 2025-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Türkiyə Respublikasına 3 işgüzar, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən Azərbaycan Respublikasına 4 işgüzar səfər həyata keçirilib. Ölkə Prezidenti 5 mart tarixində İğdır-Naxçıvan Qaz Boru Kəmərinin açılış mərasimində, 11-12 aprel tarixində IV Antalya Diplomatiya Forumunda, 19 iyun tarixində isə Kahramanmaraş şəhərində zəlzələdən sonra tikilmiş "Azərbaycan" məhəlləsinin açılış mərasimində iştirak edib. Azərbaycanla Gürcüstan arasında tarixi, mədəni və iqtisadi bağlara əsaslanan strateji tərəfdaşlıq əlaqələrinin daha da inkişafı istiqamətində səylər davam etdirilib. Gürcüstan Prezidenti və xarici işlər naziri ilk xarici səfərlərini ölkəmizə həyata keçiriblər. Son bir il ərzində "AZAL"a məxsus təyyarənin vurulmasından sonra Rusiya ilə münasibətlərdə ümumi gərginlik yaşanıb. Buna baxmayaraq, ölkələrimiz arasında dialoq və qarşılıqlı təmaslar davam edib. 9 oktyabr tarixində Düşənbədə MDB Dövlət Başçıları Şurasının iclasında iki ölkə Prezidentləri arasında keçirilmiş görüş, Rusiya tərəfindən verilən açıqlamalar, təyyarənin məhz Rusiya silahlı qüvvələrinin səhvi nəticəsində vurulmasının etiraf olunması və üzrxahlıq edilməsi münasibətlərin normallaşması istiqamətində əhəmiyyətli addım olmuşdur. İran ilə münasibətlər intensiv qarşılıqlı səfərlərlə yadda qalıb. İran İslam Respublikasının Prezidenti aprel və iyul aylarında, İranın xarici işlər naziri isə dekabr ayında ölkəmizdə səfərdə olublar.

Mövcud ikitərəfli və çoxtərəfli **regional əməkdaşlıq mexanizmləri** çərçivəsində keçirilmiş görüşlər ölkəmizin regional əməkdaşlığa verdiyi mühüm əhəmiyyətin göstəricisidir. Bu çərçivədə, 28 may tarixində Laçın şəhərində Azərbaycan və Türkiyə Prezidentləri və Pakistan Baş naziri arasında üçtərəfli əməkdaşlıq formatının Zirvə Görüşü, 22 avqust tarixində Avaza şəhərində Azərbaycan, Türkmənistan və Özbəkistan liderləri arasında yüksək səviyyəli görüş, 29 yanvar tarixində isə Azərbaycan-Türkiyə-Özbəkistan xarici işlər, iqtisadiyyat və nəqliyyat nazirlərinin ikinci görüşü baş tutub.

**Mərkəzi Asiya** ölkələri ilə tarixi dostluq və qardaşlıq münasibətlərinin inkişafı qarşılıqlı etimad və strateji tərəfdaşlıq əsasında ardıcıl, fəal və uğurla davam etdirilib. Qarşılıqlı səfərlərin intensivliyi münasibətlərin və əməkdaşlığın yüksək səviyyədə olmasını, Azərbaycanın xarici siyasəti çərçivəsində Mərkəzi Asiya regionuna verilən xüsusi önəmi bir daha nümayiş etdirib. İl ərzində Azərbaycan Respublikası Prezidentinin

Mərkəzi Asiya ölkələrinə, habelə həmin ölkələrin Prezidentlərinin və digər ali nümayəndələrinin Azərbaycana 14 qarşılıqlı səfəri həyata keçirilib. Ümumilikdə, son üç ildə Azərbaycan Respublikası Prezidentinin Mərkəzi Asiya ölkələrinə 14 səfəri, Mərkəzi Asiya ölkələri liderlərinin isə Azərbaycana 23 səfəri baş tutub.

15-16 noyabr tarixlərində Özbəkistanda keçirilmiş Mərkəzi Asiya Dövlət Başçılarının VII Məşvərət Görüşündə Azərbaycan Respublikasının Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Şurasına tamhüquqlu üzv kimi qəbul edilməsi, ölkələrimizin vahid geosiyasi və geoiqtisadi məkanda birləşməsi, Mərkəzi Asiyada əməkdaşlığın C5 formatından C6 formatına çevrilməsi, mühüm diplomatik nailiyyət olmaqla, qarşılıqlı etimadın və strateji tərəfdaşlığın yeni mərhələyə daxil olmasına imkan verib. İl ərzində Özbəkistan və Qazaxıstan ilə Ali Dövlətlərarası Şuraların ikinci iclasları, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Türkmənistan ilə aidiyyəti hökumətlərarası komissiyaların iclasları keçirilib.

Azərbaycan və **Avropa ölkələri** arasında siyasi dialoq və əməkdaşlıq qarşılıqlı maraqlar əsasında inkişaf etdirilib. Hesabat ili ərzində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin İsveçrə, Albaniya, Macarıstan, Danimarka və Slovakiyaya işgüzar səfərləri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın Müqəddəs Taxt-Taca rəsmi səfəri baş tutub. Eyni zamanda, Albaniya, İtaliya, Almaniya və Şimali Makedoniya dövlət və hökumət başçıları Azərbaycana səfər edib. İl ərzində, ölkə rəhbəri Azərbaycanda və xaricdə təşkil olunmuş beynəlxalq tədbir və forumlar çərçivəsində 16 Avropa ölkəsinin dövlət və hökumət başçıları ilə 20-dən çox görüş keçirib. Həmçinin, Birləşmiş Krallıq, Latviya və Macarıstanla strateji dialoq çərçivəsində müvafiq iclaslar keçirilib. 13 oktyabr tarixində Birləşmiş Krallığın Avropa üzrə Naziri Stiven Dauti və Beynəlxalq İnkişaf və Afrika üzrə Dövlət Naziri Baronessa Çapman Parlamentin hər iki palatasında bəyanatlarla çıxış edərək, Birləşmiş Krallığın Azərbaycan ilə ikitərəfli münasibətlərinin Strateji Tərəfdaşlığa yüksəldilməsi barədə qərar qəbul etdiklərini elan ediblər.

**Asiya və Sakit okean regionu** ölkələri ilə mövcud münasibətlərin genişləndirilməsi istiqamətində fəaliyyət davam etdirilib. İl ərzində Çin Xalq Respublikası və Vyetnam Sosialist Respublikası ilə münasibətlər yeni mərhələyə yüksəlib. Azərbaycan Respublikası Prezidentinin Çin Xalq Respublikasına bir dövlət və bir işgüzar səfəri həyata keçirilib. Ölkə başçısının 22-24 aprel tarixlərində baş tutan dövlət səfəri çərçivəsində Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat imzalanıb. 7 may tarixində Azərbaycan Respublikasının Prezidenti və Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi tərəfindən "Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında Strateji Tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanat" qəbul olunub. Pakistan İslam Respublikası ilə ənənəvi müsbət dinamika davam etdirilib, Pakistan Baş nazirinin Azərbaycana bir rəsmi və iki işgüzar səfəri baş tutub.

2025-ci il **Yaxın Şərq və Afrika** ölkələri ilə münasibətlərin inkişafı və əməkdaşlığın gücləndirilməsi üçün mühüm il olub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) üç işgüzar və Misirə bir işgüzar səfəri həyata keçirilib. İl ərzində BƏƏ-nin, Somalinin, Qvineya-Bisaunun və Ruandanın ölkə başçılarının və Suriyanın keçid dövrü Prezidentinin Azərbaycana rəsmi səfərləri baş tutub. Rəsmi səfərlər və bir sıra beynəlxalq platformalar çərçivəsində Yaxın Şərq və Afrika regionunun 27 ölkəsinin xarici işlər nazirləri ilə görüşlər keçirilib. Sentyabr ayında Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin ölkəmizə səfəri zamanı "Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələri haqqında Birgə Bəyannamə" imzalanıb. Cari ildə həmçinin Azərbaycanla BƏƏ arasında Hərtərəfli Strateji Tərəfdaşlıq üzrə Əməkdaşlıq Komitəsinin ilk iclası baş tutub.

Aprel ayının 11-də Antalya Forumu çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd əl-Şaraa arasında ilk görüş ikitərəfli əlaqələrdə yeni müsbət təkan olub. May ayında Baş nazirin müavininin rəhbərliyi ilə hökumət missiyasının Suriyaya səfəri çərçivəsində,

qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlıq əlaqələrinin inkişafı müzakirə olunub. İyulun 12-də Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd əl-Şaraanın Azərbaycana ilk səfəri iki ölkənin münasibətlərində mühüm addım olub. 2 avqust tarixində Azərbaycan, Türkiyə, Suriya və Qətər arasında dördtərəfli razılaşma çərçivəsində, Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya nəqlini təmin edən təbii qaz boru kəmərinin rəsmi açılış mərasimi keçirilib. Bununla, Suriya Azərbaycanın qaz ixrac etdiyi 14-cü ölkə olub. Ümumilikdə, Azərbaycanla Suriya arasında əməkdaşlıq üçün geniş perspektiv mövcuddur.

Yaxın Şərqdə və Qəzzada vəziyyətlə əlaqədar ölkəmizin diplomatik təmasları davam edib. İsrail-Fələstin münaqişə zonasında baş verən hadisələr ilə bağlı bir sıra yüksək səviyyəli tədbirlərdə ölkəmiz təmsil olunub, İsrail-Fələstin münaqişəsi ilə bağlı mövqeyimiz diqqətə çatdırılıb. Cənab Prezident İlham Əliyevin ABŞ və Misir Prezidentləri tərəfindən Qəzza üzrə Şarm əl-Şeyx sammitinə dəvət olunması Azərbaycanın qlobal səviyyədə fəal aktor kimi qəbul olunduğunun, Azərbaycanın sülh təcrübəsinə beynəlxalq etimadın göstəricisidir.

**Şimali, Mərkəzi və Cənubi Amerika** dövlətləri ilə ikitərəfli əlaqələrin genişləndirilməsi istiqamətində fəaliyyət aparılıb. ABŞ-Azərbaycan münasibətlərində müsbət irəliləyişlər əldə olunub. 7-8 avqust tarixlərində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına səfəri həyata keçirilib. Səfər çərçivəsində Azərbaycanla ABŞ arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi istiqamətində iki ölkənin Prezidentləri tərəfindən "Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu" imzalanıb. Anlaşma Memorandumuna əsasən, qarşılıqlı maraq kəsb edən sahələrdə strateji tərəfdaşlığın gücləndirilməsinə xidmət edəcək Strateji Tərəfdaşlıq Xartiyasının 6 ay ərzində hazırlanması məqsədilə iki ölkə arasında Strateji İşçi Qrupu yaradılıb. Strateji İşçi Qrupu çərçivəsində enerji, ticarət və tranzit daxil olmaqla regional bağlantılar; süni intellekt və rəqəmsal infrastruktur daxil olmaqla iqtisadi sərmayə; eləcə də müdafiə, təhlükəsizlik və terrorla mübarizə kimi sahələrin prioritetləşdirilməsi planlaşdırılır. Bu məqsədlə müxtəlif istiqamətlər üzrə ikitərəfli təmaslar və görüşlər keçirilib, qarşılıqlı səfərlər baş tutub, habelə İşçi Qrupunun tam tərkibdə ilk iclası 19 dekabr tarixində təşkil olunub. Səfər həmçinin iki ölkə Prezidenti arasında keçirilən görüş çərçivəsində ABŞ Prezidenti tərəfindən Azadlığa Dəstək Aktına 907-ci düzəlişin tətbiqinin dayandırılması barədə sərəncamın imzalanması ilə əlamətdar olub. Azərbaycan-ABŞ münasibətlərində keçmişin mənfi mirası olan 907-ci düzəlişin tətbiqinin ABŞ Prezidenti tərəfindən Prezident İlham Əliyevlə görüş çərçivəsində dayandırılması əhəmiyyətli rəmzi məna daşıyır.

Latın Amerikası və Karib hövzəsi regionu ölkələri ilə ikitərəfli münasibətlərdə müsbət inkişaf dinamikası müşahidə olunub, Braziliya və Argentina ilə ticarət üzrə birgə işçi qruplarının iclasları keçirilib.

İl ərzində Azərbaycan tərəfindən ikitərəfli və çoxtərəfli əsasda **41 ölkə ilə 191 sənəd** imzalanıb. Hesabat ili ərzində **52 ölkənin Xarici İşlər Nazirlikləri ilə siyasi məsləhətləşmələr** keçirilib, 3 ölkə ilə Xarici İşlər Nazirlikləri arasında **siyasi məsləhətləşmələr mexanizminin yaradılmasına dair Protokol və Anlaşma Memorandumu** imzalanıb.

Azərbaycan Respublikasının xarici ölkələrdə **diplomatik təmsilçiliyinin genişləndirilməsi** istiqamətində tədbirlər çərçivəsində, 2025-ci ildə Azərbaycan Respublikasının Tailand Krallığında və Oman Sultanlığındakı səfirliklərinin rəsmi açılışı baş tutub, 13 illik fasilədən sonra cari ilin fevral ayında Azərbaycan Respublikası Suriyadakı Səfirliyinin fəaliyyətini bərpa edib. Azərbaycan Respublikasının Bəhreyn Krallığında Səfirliyinin təsis edilməsi ilə bağlı qanun qəbul olunub. Beləliklə Azərbaycan Respublikasının xaricdə diplomatik missiyalarının ümumi sayı 93-ə çatıb (70 səfirlik, 6

daimi nümayəndəlik, 9 baş konsulluq, 7 səfirlik ofisi və 1 təmsilçilik ofisi). Estoniya və Somalinin Azərbaycanda Səfirliyinin təsis edilməsi ilə bağlı müvafiq prosedurlara başlanılıb.

## Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq

Azərbaycan Respublikası, əvvəlki illərdə olduğu kimi, 2025-ci ildə də dünyada sülh, təhlükəsizlik və dayanıqlı inkişafın təmin olunmasına, beynəlxalq təşkilatlar çərçivəsində çoxtərəfli əməkdaşlığın təşviqinə öz töhfəsini verib.

**Azərbaycan ilə Birləşmiş Millətlər Təşkilatı (BMT) arasında əməkdaşlıq** münasibətləri dəyişən reallıqlar və milli ehtiyaclarımız xüsusunda dinamik qaydada davam etdirilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev BMT Baş Assambleyasının (BA) 80-ci sessiyasında iştirak və çıxış edib, çoxsaylı görüşlər keçirib. 24 oktyabr tarixində “BMT və Azərbaycan Respublikası Hökuməti arasında 2026-2030-cu illər üçün Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi” imzalanıb.

Azərbaycan **Türk Dövlətləri Təşkilatı (TDT)** çərçivəsində strateji əməkdaşlığa xüsusi önəm verir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev TDT-nin Dövlət Başçıları Şurasının 21 may tarixində Budapeşt şəhərində keçirilmiş qeyri-rəsmi Zirvə Görüşündə və 7 oktyabr tarixində Qəbələ şəhərində baş tutmuş 12-ci Zirvə Görüşündə iştirak edib. “Regional Sülh və Təhlükəsizlik” mövzusunda Zirvə Görüşündə Təşkilatın sədrliyi Azərbaycana keçib. Toplantının yekununda dövlət və hökumət başçıları tərəfindən Qəbələ Bəyannaməsi qəbul olunub. Tədbir zamanı, Azərbaycan Respublikasının Prezidenti 2026-cı ildə Azərbaycanda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin birgə hərbi təliminin, 1926-cı il Bakı Türkologiya Qurultayının və qurultay zamanı latın əlifbasının qəbul edilməsinin 100 illiyi münasibətilə tədbirlərin keçirilməsini təklif edib. Sammitdə qəbul edilən sənədlər sırasında türk dünyasının institusional əsaslarını möhkəmləndirən və əməkdaşlıq mexanizmlərin təkmilləşdirən, büdcə istiqamətini tənzimləyən bir sıra praktiki qərarlar da yer alıb. Bunların sırasında, “TDT+” formatının yaradılması haqqında Qərarı və Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) inkişafı və gücləndirilməsi haqqında Qərarı qeyd etmək olar.

Azərbaycanın Asiyanın ən böyük regional platforması olan **Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə (AQEM)** 2024-cü ilin dekabr ayından başlayan Sədrliyi 2025-ci ildə bütün prioritet istiqamətlər üzrə uğurla davam etdirilib. “Daha güclü AQEM: Asiyada Bağlantılar, Rəqəmsallaşma və Dayanıqlı İnkişaf” şüarı altında müəyyən edilmiş strateji prioritetlərə uyğun olaraq, AQEM Aparıcı Universitetlərin Tərəfdaşlıq Şəbəkəsi fəaliyyətə başlayıb, AQEM Qadınlar Şurasının Nizamnaməsi təsdiq edilib, AQEM Maliyyə Sammiti təsis olunub. Azərbaycan AQEM-in Biznes Şurası və Biznes Forumuna, AQEM-in Gənclər Forumuna, habelə 13-cü AQEM Beyin Mərkəzləri Forumuna uğurla ev sahibliyi edib. BMT BA-nın 80-ci sessiyasının yüksək səviyyəli həftəsi çərçivəsində nazir C.Bayramovun sədrliyi ilə AQEM Nazirlər Şurasının qeyri-rəsmi iclası keçirilib.

2025-ci il ərzində Azərbaycan **BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29)** sədri qismində iqlim dəyişmələri ilə bağlı əksər beynəlxalq platformalarda aktiv iştirak edib, müvafiq proseslərə töhfə verib və Bakıda COP29 çərçivəsində qəbul edilmiş qərarların icrası ilə bağlı tədbirlər görüb. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Katibliyi tərəfindən iqlim dəyişmələri ilə bağlı təşkil edilən mandatlı tədbirlərin keçirilməsi və gündəliyinin hazırlanması prosesində Azərbaycan COP29 sədri kimi yaxından iştirak edib və mühüm beynəlxalq platformalarda bir sıra çətin razılaşdırılan məsələlər məhz Azərbaycanın birbaşa dəstəyi və vasitəçiliyi ilə həll olunub. COP30-da Azərbaycan Respublikası Milli Məclisin sədri xanım Sahibə Qafarovanın başçılıq etdiyi nümayəndə heyəti iştirak edib. COP30-un rəsmi açılış günündə COP-a sədrlik Azərbaycan

Respublikasından Braziliyaya təhvil verilib. Ölkəmiz Konfransın qərarlarının qəbulu istiqamətində aparılan danışıqlara cəlb edilib və intensiv danışıqlardan sonra COP31-in ev sahibliyinin Türkiyəyə verilməsi barədə qərar qəbul edilib. Bununla yanaşı, COP29 çərçivəsində qəbul edilmiş Bakı Maliyyə Hədəfi qərarına uyğun olaraq Azərbaycan və Braziliya tərəfi "Bakıdan Beleme Yol Xəritəsi"ni hazırlayaraq, COP30 çərçivəsində təqdim ediblər.

Azərbaycan 2025-ci ildə **İslam Əməkdaşlıq Təşkilatı (İƏT)** və üzv dövlətləri ilə əməkdaşlığın gücləndirilməsini davam etdirib. 21-22 iyun tarixlərində İstanbulda keçirilən İƏT Xarici İşlər Nazirləri Şurasının 51-ci sessiyası çərçivəsində "İndiki Ermənistan ərazisindən zorla və sistemli şəkildə qovulmuş azərbaycanlıların qayıdış hüququ haqqında" başlıqlı qətnamə qəbul edilib, İstanbul Bəyannaməsində sözügedən məsələ üzrə müvafiq bənd əks olunub.

**İqtisadi Əməkdaşlıq Təşkilatı (İqƏT)** ilə əməkdaşlıq çərçivəsində cənab Prezident İlham Əliyevin təşəbbüsü ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında ilk dəfə İqƏT Həftəsi keçirilib, Xankəndidə Zirvə Görüşü, eləcə də Ağdam, Laçın və Şuşada qadınlar, gənclər və biznes dairələri üçün tematik forumlar təşkil olunub. Zirvə nəticələrini əks etdirən Xankəndi Kommunikesi hazırlanıb, İqƏT-in Azərbaycanda Təmiz Enerji Mərkəzi təsis edilərək fəaliyyətə başlayıb.

**Qoşulmama Hərəkatında (QH)** sədrlik Troykasının üzvü və milli qisimdə, o cümlədən QH Parlamentlər Şəbəkəsi və Gənclər Təşkilatı çərçivəsində fəaliyyəti uğurla davam etdirilib.

Azərbaycan tərəfindən **İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8)** yeni üzvü kimi bu platformada milli təşəbbüslər reallaşdırılıb. Bakıda keçirilən D-8 Həftəsi çərçivəsində komissarların qeyri-rəsmi iclası, iqlim və şəhərsalma üzrə nazirlər dialoqu, D-8 Media Forumu, eləcə də D-8 Gənclər Dialoqu iclası təşkil olunub, D-8 Enerji və İqlim Mərkəzi, D-8 Nəqliyyat Mükəmməllik Mərkəzi və D-8 Media Mərkəzinin Azərbaycanda yaradılması təşəbbüsü irəli sürülüb və razılaşdırılıb.

**Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO)** ilə siyasi dialoqun və praktiki əməkdaşlığın inkişafı istiqamətində əməli addımlar atılıb. Bu çərçivədə noyabr ayında NATO dövlətlərinin Təşkilat yanında daimi nümayəndələrindən ibarət qrup Azərbaycanda səfərdə olub. Alyansla əməliyyat uyarlılığımızı təmin edən əsas praktiki əməkdaşlıq mexanizmi olan "Planlaşdırma və Analiz Prosesi - Qiymətləndirmə sənədi" üzrə Bakıda və NATO-nun mənzil-qərargahında Azərbaycan+NATO formatında iclaslar keçirilib.

2025-ci ildə Azərbaycan ilə **BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO)** arasında əməkdaşlıq davam etdirilib, Azərbaycan Təşkilatın bir sıra strukturlarına üzv seçilib. Özbəkistanın Səmərqənd şəhərində UNESCO-nun Baş konfransının 43-cü sessiyasında nazir C.Bayramov iştirak və çıxış edib. Baş Konfransın 43-cü sessiyasında Aşıq Ələsgərin vəfatının 100 illik yubileyi (2026) və Aşıq Dirili Qurbaninin anadan olmasının 550 illik yubileyi (2027) UNESCO-nun 2026-2027-ci illər üzrə yubileylər proqramına daxil edilib.

1 yanvar-30 iyun tarixlərində ölkəmiz **Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında (QDİƏT)** Fəaliyyətdə olan Sədr vəzifəsini "Bağlantıların gücləndirilməsi, inkişafın artırılması: Nəqliyyat QDİƏT-in gələcəyinin özəyində" şüarı altında həyata keçirib, müvafiq iclasların təşkili və iqtisadi gündəlik üzrə praktiki nəticələrin əldə olunmasına nail olub.

Azərbaycanla **Avropa İttifaqı (Aİ)** arasında qarşılıqlı hörmət, bərabərhüquqluluq və ortaq faydaya əsaslanan dialoq və əməkdaşlığın təşviqi istiqamətində müsbət dinamika müşahidə edilib. Azərbaycan və Aİ arasında təhlükəsizlik, enerji və nəqliyyat mövzularında strukturlu dialoq formatları çərçivəsində təmaslar baş tutub, münasibətlərin gələcək inkişaf istiqamətləri ətrafında müzakirələr aparılıb. 25 aprel tarixində Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti xanım Kaya Kallas Bakıya səfər edib.

Azərbaycanla Aİ arasında yeni Tərəfdaşlıq Prioritetləri üzrə danışıqlara başlanılması, yeni hərtərəfli Saziş layihəsi üzrə danışıqların bərpa edilməsi barədə ümumi razılıq ifadə olunub. Aİ-nin Azərbaycan Respublikası üçün Fəaliyyət Proqramının “Azərbaycanda minatəmizləmə fəaliyyətinə, su və nəqliyyat sektorlarında dayanıqlı inkişafa dəstək” Maliyyələşdirmə Sazişi üzrə işlər tamamlanıb və Sazişin bu ilin sonuna qədər imzalanması nəzərdə tutulur. Azərbaycan Avropa İttifaqı münasibətlərinin perspektiv istiqamətlərindən birini Avropa İttifaqı ölkələri ilə strateji formatda ikitərəfli münasibətlərin inkişaf etdirilməsi təşkil edir. Hal-hazırda, Azərbaycan Avropa İttifaqının 10 ölkəsi ilə strateji tərəfdaşdır.

16 may tarixində Tiranada, 2 oktyabr tarixində isə Kopenhagendə **Avropa Siyasi Birliyinin** 6-cı və 7-ci Zirvə Toplantılarında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iştirak edib, Aİ Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Layen ilə görüşlər keçirilib. Bununla yanaşı, razılaşmaya əsasən, Avropa Siyasi Birliyinin 12-ci Zirvə Toplantısının 2028-ci ildə Azərbaycanda təşkil edilməsi planlaşdırılır.

İl ərzində Azərbaycan Respublikasının **Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT)** ilə əlaqələrinin qarşılıqlı maraq kəsb edən sahələrdə təşviqi istiqamətində fəaliyyət davam etdirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 31 avqust-1 sentyabr tarixlərində Çinin Tiencin şəhərində keçirilmiş Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə görüşündə iştirakı Azərbaycanın ŞƏT regionunda sülh, sabitlik və inkişafın təşviqində müstəsna rolunu növbəti dəfə nümayiş etdirib.

Azərbaycan **Müstəqil Dövlətlər Birliyi (MDB)** Dövlət Başçıları Şurası, Hökumət Başçıları Şurası, Xarici İşlər Nazirləri Şurası, İqtisadi Şurası və üzv olduğu MDB-nin digər orqanların iclaslarında iştirak edib. “MDB-nin mədəniyyət paytaxtı” Laçın şəhərində beynəlxalq səviyyəli tədbirlər və “Müstəqil Dövlətlər Birliyinin idman paytaxtı” Gəncədə və ölkəmizin digər 6 şəhərində 28 sentyabrın-8 oktyabr tarixlərində idman yarışları təşkil olunub.

Azərbaycan il ərzində **kütləvi qırğın silahlarının yayılmaması rejiminin gücləndirilməsi və qeyri-qanuni silah dövriyyəsinə qarşı mübarizə** üzrə müvafiq beynəlxalq sənədlərə və hüquqi mexanizmlərə sadiqliyini qoruyaraq, üzərinə götürdüyü beynəlxalq öhdəlikləri yerinə yetirib. ATƏT çərçivəsində hərbi-siyasi dialoq, etimad və təhlükəsizlik tədbirləri ilə əlaqədar fəaliyyətlərdə iştirak edilib.

İl ərzində beynəlxalq qurumların seçkili vəzifələrinə **Azərbaycan tərəfindən irəli sürülmüş namizədliklərin təşviq edilməsi** istiqamətində fəaliyyət davam etdirilib. Azərbaycan BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) İcraiyyə Şurası (2025-2029), BMT Turizmin İcraiyyə Şurası (2025-2029), BMT-nin Əməkçi Miqrantlar üzrə Komitəsi (2026-2029), UNESCO Mədəni Özünüifadə Müxtəlifliyinin qorunması və Təşviqi üzrə Hökumətlərarası Komitəsi (2025-2029), UNESCO Mədəni Sərvətlərin Mənsub Olduqları Ölkələrə Qaytarılmasının Təşviqi və ya Qanunsuz Mənimsəmə halında Geri Qaytarılması üzrə Hökumətlərarası Komitəsi (2025-2029), UNESCO Ümumdünya İrs Komitəsi (2025-2029), UNESCO Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması üzrə Komitəsi (2025-2029), BMT-nin Əhali və İnkişaf Komissiyası (2026-2030) və Sosial İnkişaf Komissiyası (2025-2029), Ümumdünya Poçt İttifaqının İnzibati Şurası və Poçt Əməliyyatları Şurasının (2026-2029) üzvlüyünə, BMT-nin Ətraf Mühit Proqramının Daimi Nümayəndələr Komitəsinin Bürosunun sədri (2025-2027), Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş katibi (2025-2029), UNESCO İdmanda Dopinq Əleyhinə Beynəlxalq Konvensiyasının (COP10) Bürosunun sədri vəzifələrinə seçilib. Ümumilikdə, 2025-ci ildə beynəlxalq təşkilatların seçkili orqanlarına ölkəmiz tərəfindən təqdim edilmiş 14 namizədliyin hər biri üzrə tam qələbə təmin olunub.

## İqtisadi diplomatiya

2025-ci ildə həyata keçirilən kompleks iqtisadi diplomatiya fəaliyyəti Azərbaycanın mühüm nəqliyyat, enerji, rəqəmsal və ticarət qovşağı kimi mövqelərinin möhkəmlənməsinə, tərəfdaşlıqların genişləndirilməsinə, eləcə də ölkəmizin regional və qlobal iqtisadi müstəvidə təsir imkanlarının daha da artırılmasına xidmət edib.

Azərbaycan Respublikasının **hökumətlərarası komissiyaları və birgə işçi qrupları** vasitəsilə ikitərəfli iqtisadi sahədə ümumilikdə 31 iclas keçirilib. Bu mexanizmlər çərçivəsində ticarət, investisiya, nəqliyyat, enerji, sənaye və rəqəmsal iqtisadiyyat sahələrində mövcud layihələr nəzərdən keçirilib, yeni əməkdaşlıq imkanları müəyyənləşdirilib.

İl ərzində I Azərbaycan Beynəlxalq İnvestisiya Forumu, Azərbaycan Halal Biznes Forumu, eləcə də bir sıra ikitərəfli biznes forumları və birgə biznes şuralarının iclasları təşkil olunub, xarici sərmayə üçün əlverişli mühitin tanıdılması və azərbaycanlı sahibkarların xarici bazarlara çıxışının təşviqi istiqamətində praktiki addımlar atılıb.

17-28 noyabr tarixlərində Bakıda keçirilmiş Ümumdünya Telekommunikasiya İnkişafı Konfransı çərçivəsində Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda ilk dəfə olaraq Azərbaycanın ev sahibliyi ilə Beynəlxalq Telekommunikasiya İttifaqının Regional Akselerasiya Mərkəzinin açılması ölkəmizin rəqəmsal bağlantılar, innovasiya və sahibkarlıq sahəsində aparıcı regional platforma kimi mövqeyini daha da möhkəmləndirib.

## Humanitar diplomatiya

Cari il ərzində Azərbaycanın humanitar diplomatiya sahəsində həyata keçirdiyi tədbirlər çərçivəsində 9-11 oktyabr tarixlərində **"İtkin düşmüş şəxslər probleminin həlli üçün səylərin birləşdirilməsi və əməkdaşlığın genişləndirilməsi"** mövzusunda beynəlxalq konfrans keçirilib, Ağdərə rayonunun Ballıqaya kəndində aşkarlanmış kütləvi məzarlıqlara, Şuşa həbsxanasına, Cəbrayıl və Zəngilan rayonlarında yenidən salınmış yaşayış məskənlərinə səfərlər təşkil olunub. Konfransın yekun bəyanatında itkin düşmüş şəxslər problemi üzrə illik Bakı Dialoqunun işi alqışlanıb və silahlı münaqişələr zamanı itkin düşmə ilə məşğul olacaq mexanizmin yaradılmasına dair çağırış öz əksini tapıb. Mart ayında BMT-nin Qadınların Vəziyyəti üzrə Komissiyasının 69-cu sessiyası çərçivəsində Azərbaycan tərəfindən irəli sürülən "Silahlı münaqişələr zamanı girov götürülmüş qadın və uşaqların azad edilməsi" adlı qətnamə qəbul edilib.

Ölkəmizin üzləşdiyi **mina probleminin aradan qaldırılması** istiqamətində aparılan genişmiqyaslı fəaliyyətlər barədə il ərzində beynəlxalq səviyyədə məlumatlandırma işi və humanitar minatəmizləmə fəaliyyətlərinə beynəlxalq yardımların cəlb olunması istiqamətində səylər davam etdirilib. Azərbaycan bu məqsədlə, beynəlxalq formatlarda diplomatik fəallıq göstərib, BMT, ATƏT, NATO daxil olmaqla beynəlxalq təşkilatlar və bir sıra ölkələrlə dialoqu davam etdirib. 24-26 fevral tarixlərində BMT-nin İnsan Hüquqları Şurasının 58-ci sessiyasının yüksək səviyyəli seqmenti çərçivəsində qəbul edilən "Piyadalar əleyhinə minaların bütün insan hüquqlarından tam istifadə edilməsinə təsiri" adlı qətnamənin əsas həm-müəlliflərindən biri Azərbaycan olub. BMT İHŞ tarixində müvafiq mövzu üzrə ilk təşəbbüs olan bu qətnamə mina qurbanlarının insan hüquqlarının təşviqi və təmin olunmasına çağırış, o cümlədən minaların ətraf mühitə və ekosistemə verdiyi zərər, bu çərçivədə dövlətlərin beynəlxalq hüquq üzrə məsuliyyətlərinin tanınması baxımından vacib əhəmiyyət kəsb edir.

13-14 may tarixlərində **Avropa Şurası (AŞ)** Nazirlər Komitəsinin Lüksemburq şəhərində keçirilmiş 134-cü sessiyası çərçivəsində AŞ-nin Azərbaycan üzrə 2022-2025-ci illər üçün Fəaliyyət Planının və əlaqəli layihələrin müddəti 2026-cı ilə uzadılıb.

İnsan hüquqları sahəsində beynəlxalq əməkdaşlığın vacib seqmenti kimi İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının (MDİHK) işinə verilən dəyərin göstəricisi olaraq, onun fəaliyyətinin dəstəklənməsi üçün Azərbaycan tərəfindən könüllü maliyyə töhfəsi ayrılıb.

Ölkəmiz 4-6 noyabr tarixlərində Dohada keçirilmiş ikinci Dünya Sosial Sammitində iştirak edib və sessiyada 2026-cı ildə ölkəmizdə keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) barədə məlumat verilib. Ümumilikdə, Azərbaycanın 2026-cı ildə WUF13 sessiyasına ev sahibliyi etməsi və Forum çərçivəsində ilk dəfə Liderlər Sammitinin keçirilməsi ilə əlaqədar zəruri hazırlıq tədbirləri görülür.

30 oktyabr-13 noyabr tarixlərində Özbəkistanın Səmərqənd şəhərində UNESCO-nun Baş konfransının 43-cü sessiyasında 15 dekabr tarixi "Ümumdünya Türk Dili Ailəsi Günü" elan edilib. Azərbaycan Türk dili ailəsinin qorunması, inkişafı və beynəlxalq səviyyədə tanıdılması istiqamətində siyasi və mədəni xəttinə uyğun olaraq bu təşəbbüsü fəal şəkildə təşviq edib.

## Beynəlxalq yardım fəaliyyəti

2025-ci ildə Azərbaycan qlobal miqyasda yardım və humanitar dəstək fəaliyyətini aktiv şəkildə davam etdirib. Xarici dövlət və beynəlxalq təşkilatların yardım müraciətlərinə baxılaraq Azərbaycan Respublikasının digər dövlət qurumları ilə əlaqələndirilib və müvafiq yardımların çatdırılması təşkil edilib.

Cari ildə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə təsis edilmiş İslam Əməkdaşlıq Təşkilatının, Qoşulmama Hərəkatının və inkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS), eləcə də xalqımızla etnik, tarixi və mədəni bağlara malik xalqların və milli azlıqların yaşadığı ölkələrin vətəndaşları üçün "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" proqramının 2025/26-cı tədris ili üzrə 51 ölkədən 100 nəfər əcnəbi tələbəyə ölkəmizdə təhsil almaq imkanı yaradılıb.

9-22 iyun tarixlərində "Əcnəbi diplomatlar üçün diplomatik xidmət təkmilləşdirmə proqramı" (Advanced Foreign Service Program for Foreign Diplomats") adlı ixtisasartırma təlimini 27 ölkədən 30 xarici diplomat uğurla tamamlayıb.

Azərbaycan Respublikası tərəfindən **Ukraynaya humanitar yardımın davamı** olaraq müharibədən zərər çəkmiş ukraynalı uşaqların tibbi və sosial-psixoloji reabilitasiyası məqsədilə ümumilikdə 470-dən çox uşaq ölkəmizdə müvafiq dəstək alıb. Həmçinin, qış şəraitində enerji təchizatının bərpasına dəstək məqsədilə Ukraynaya elektrik avadanlıqları göndərilib. İrpen şəhər poliklinikasının əsaslı bərpası, Kiyevdə uşaq kitabxanasının təmiri başa çatdırılıb. Ümumilikdə, Azərbaycan Respublikası tərəfindən Ukraynaya indiyədək göstərilmiş humanitar, bərpa və yenidənqurma xarakterli yardımların həcmi 75 milyon manata yaxın (44 milyon ABŞ dollarından artıq) olub.

2025-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə **Suriyaya** 200 ton humanitar yardım göndərilib.

Yardım sahəsində inkişaf etməkdə olan və ən az inkişaf etmiş ölkələrin sosial-iqtisadi inkişafının stimullaşdırılması məqsədilə, Azərbaycan Respublikası tərəfindən ikitərəfli əsasda Sent Kits və Nevis, Sent Lusiya, Suriya, Cibuti və Keniya, Antiqua və Barbuda, Tuvalu, Uqanda və Efiopiyaya maliyyə dəstəyi göstərilib. İl ərzində inkişaf etməkdə olan kiçik ada dövlətləri ilə (SIDS) birgə layihələrin icrasına başlanılıb, İslam Əməkdaşlıq Təşkilatı (İƏT), BMT-nin Fövqəladə Hallara qarşı Mərkəzi Cavab Fondu (CERF), BMT-nin Məskunlaşma Proqramı, Cənub–Cənub Əməkdaşlığı üzrə Perez-Querrero Etimad Fondu, Qoşulmama Hərəkatı Gənclər Təşkilatının Tədqiqat Mərkəzi, İƏT-in Müstəqil Daimi İnsan Hüquqları Komissiyası, Türk Dövlətləri Təşkilatı, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Katibliyinin Etimad Fonduna maliyyə yardımları ayrılıb.

İl ərzində ölkəmiz tərəfindən göstərilmiş beynəlxalq yardımların maliyyə həcmi 50 milyon manatdan çox olub.

## Postmünaqişə dövründə diplomatik fəaliyyət

Azərbaycan tərəfinin təşəbbüsü ilə bir-birinin suverenliyi və ərazi bütövlüyü prinsipləri əsasında Ermənistanla münasibətlərin normallaşdırılmasına dair gündəlik milli maraqlara uyğun şəkildə 2025-ci il ərzində də davam etdirilib və normallaşma prosesində irəliləyiş əldə olunub. 8 avqust tarixində ABŞ Prezidenti Donald Trampın ev sahibliyi və iştirakı ilə Vaşinqtonda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan arasında baş tutmuş **Vaşinqton Sülh Sammiti** ilə Azərbaycan Respublikasının irəlilətdiyi normallaşma gündəliyinin Ermənistan və ümumilikdə beynəlxalq birlik tərəfindən qəbul edilməsi təmin edilib, ölkəmiz prosesin ilk mərhələsindən ortaya qoyulan məqsədlərini qətiyyətlə, məqsədyönlü və sistemli fəaliyyətlə reallaşdırmağa nail olub.

Vaşinqton Sammitinin yekununda Azərbaycan və Ermənistan liderləri tərəfindən, habelə şahid qismində ABŞ Prezidenti tərəfindən imzalanmış Birgə Bəyannamədə, Azərbaycan və Ermənistan münaqişənin artıq keçmişdə qaldığını təsdiqləyib və bununla iki ölkə arasında beynəlxalq sərhədlərin toxunulmazlığı və ərazi əldə olunması üçün güc tətbiq etmənin yolverilməzliyi əsasında qonşuluq münasibətlərinin qurulması üçün şərtlərin yarandığını bəyan ediblər.

Vaşinqton Sülh Sammitində həmçinin Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının Baş naziri və ABŞ Prezidentinin şahidliyi ilə Azərbaycan və Ermənistan xarici işlər nazirləri tərəfindən "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in mətni paraflanıb.

Birgə Bəyannamədə, Sazişin yekun olaraq imzalanması və ratifikasiyasına nail olunması üçün əlavə addımların atılması zərurəti vurğulanıb. Bu kontekstə, Azərbaycan tərəfi Sazişin imzalanması üçün Ermənistan konstitusiyasında dəyişiklik edilərək Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılacağını gözləyir.

Hər iki ölkənin xarici işlər naziri **ATƏT Minsk Prosesinin və əlaqəli strukturlarının bağlanması** ilə bağlı ATƏT-ə birgə müraciəti imzalayıb, 2025-ci ilin 1 sentyabr tarixində ATƏT-in Nazirlər Şurası tərəfindən müvafiq qərar qəbul edilib və 1 dekabr 2025-ci il tarixində sözügedən strukturların bağlanmasına dair bütün təşkilati-texniki tədbirlərin icrası başa çatıb. Bununla, keçmiş münaqişənin qalığı olan Minsk Prosesi və əlaqədar strukturlar beynəlxalq hüquqi müstəvidə yekun olaraq ləğv edilib, münaqişə mövzusunun beynəlxalq gündəlikdən çıxarılması istiqamətində ən vacib bir mərhələ də geridə qalıb.

Vaşinqton Sülh Sammitinin ən mühüm nəticələrindən biri **"Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP)** əsasının qoyulmasıdır. Özündə dəmir və avtomobil yolu, enerji boru kəmərləri və digər kommunikasiya xətlərini ehtiva edəcək bu marşrut Azərbaycanın əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz əlaqəni təmin edəcək və eyni zamanda, Azərbaycan Respublikasının üzərindən keçən beynəlxalq nəqliyyat və tranzit marşrutunun əlavə bir seqmentinin fəaliyyətə başlamasına xidmət edəcəkdir.

Beləliklə, ərazilərinin 30 ilə yaxın davam edən hərbi işğalına son qoyan Azərbaycan Respublikası davamlı və qətiyyətli səyləri ilə 2025-ci ildə Ermənistan ilə de-fakto sülhü beynəlxalq hüquqa uyğun və ədalətli şəkildə təsis edib. Azərbaycanın öz ərazisi üzərində suveren nəzarəti bərpa etməsi reallığı və bunun hər hansı yenidən təftiş mövzusu olmayacağı Ermənistan və bütünlüklə beynəlxalq birlik tərəfindən açıq və birmənalı şəkildə qəbul edilib.

Bundan irəli gələrək, iki dövlət arasında müxtəlif müstəvilərdə **dialoqun təşviqi və etimad quruculuğu** istiqamətində səylər intensivləşib. Bununla yanaşı, ölkəmizdən Ermənistana yük tranziti ilə bağlı mövcud olan məhdudiyyətlərin aradan qaldırılması, Qazaxıstan və Rusiyadan taxılın Azərbaycan-Gürcüstan ərazisindən keçməklə Ermənistana çatdırılması istiqamətində addımlar, Ermənistan tərəfindən Azərbaycanın neft məhsullarının satın alınması müsbət etimad-quruculuğu tədbirləridir. Bununla yanaşı,

Azərbaycan və Ermənistanda iki ölkənin beyin mərkəzlərinin nümayəndələrinin və ekspertlərin görüşləri təşkil olunub.

Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında **dövlət sərhədinin delimitasiyası** üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyasının işi davam etdirilib. 16 yanvar tarixində Azərbaycan ilə Ermənistan arasında sərhəddə sözügedən Komissiyaların 11-ci və 28 noyabr tarixində Qəbələ şəhərində 12-ci iclası keçirilib, 14 fevral tarixində videokonfrans formatında işçi görüşü baş tutub.

Azərbaycan sülh gündəliyinin təşəbbüskarı olaraq, 2026-cı ildə də Ermənistanla normallaşma prosesini məntiqi sona çatdırmaq üçün ikitərəfli birbaşa dialoq yolu ilə məqsədyönlü və prinsipial siyasət kursunu davam etdirəcəkdir. Bu baxımdan, Azərbaycan tərəfi əldə edilmiş bütün razılıqların və götürülmüş bütün öhdəliklərin tam və vaxtında icrasının təmin edilməsini vacib hesab edir.

Bu kontekstdə, artıq paraflanmış ikitərəfli sazişin imzalanması və ratifikasiyasını təmin etmək üçün Ermənistanın öz Konstitusiyasında Azərbaycana qarşı hələ də mövcud olan ərazi iddialarının aradan qaldırması və TRIPP layihəsi ilə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan MR arasında maneəsiz əlaqənin təmin edilməsi ilə bağlı öhdəliklərin tam icrası xüsusi əhəmiyyət kəsb edir.

## Ermənistana qarşı beynəlxalq hüquqi tədbirlər

2025-ci il ərzində Ermənistan tərəfindən təxminən 30 il ərzində işğal altında saxlanılmış ərazilərimizdə törədilmiş cinayətlərin ifşa edilməsi və bu əməllərə görə Ermənistanın beynəlxalq hüquqi məsuliyyətinin təsbit edilməsi istiqamətində işlər davam etdirilib.

Azərbaycan Respublikasının Ermənistan Respublikasına qarşı 1979-cu il tarixli **"Avropanın canlı təbiətinin və təbii mühitinin qorunması haqqında" Bern Konvensiyasının tətbiqi** üzrə qaldırdığı iddia çərçivəsində Ermənistan tərəfindən Azərbaycanın işğal altında saxlanılmış ərazilərində ətraf mühitə vurulmuş genişmiqyaslı zərərə, biomüxtəlifliyin məhv edilməsinə və təbii sərvətlərin qanunsuz istismarına dair faktları özündə əks etdirən əsas iddia sənədi 2025-ci ilin 12 fevral tarixində Haaqa şəhərində yerləşən Daimi Arbitraj Məhkəməsinə təqdim edilib. Həmin iddia sənədinə dair Ermənistan Respublikasının etirazlarına cavab olaraq, ölkəmizin mövqeyi Daimi Arbitraj Məhkəməsinə bildirilib və 16 oktyabr tarixində əsas iddiaya qarşı ilkin etirazlar üzrə icraatın ayrılması barədə dinləmələr başlanılıb.

**"Enerji Xartiyası Müqaviləsi"nə əsasən Azərbaycan Respublikasının Ermənistan Respublikasına qarşı qaldırdığı dövlətlərarası arbitraj işi** çərçivəsində Azərbaycanın əsas iddia sənədinə münasibətdə Ermənistanın icraatın ilkin mərhələdə ayrılmasını nəzərdə tutan tələbi üzrə Azərbaycanın etirazları Daimi Arbitraj Məhkəməsinə təqdim edilib. Məhkəmə tərəfindən 2025-ci ilin 13 fevral tarixində icraatın ayrılması tələbi ilə bağlı qərar qəbul olunub və Ermənistanın ilkin etirazları, eləcə də Azərbaycanın bu etirazlara cavabları Məhkəməyə təqdim edilib.

**BMT-nin Beynəlxalq Ədalət Məhkəməsində 1965-ci il tarixli "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiyanın təfsiri və tətbiqi** ilə bağlı Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında davam edən dövlətlərarası icraatlar çərçivəsində tərəflər əsas iddia sənədlərinə ("Memorial") münasibətdə əsas etiraz sənədlərini ("Counter-Memorial") 12 noyabr tarixində Məhkəməyə rəsmi şəkildə təqdim edib və beləliklə də, işin mahiyyəti üzrə hərtərəfli araşdırma mərhələsi başlanılıb.

## Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarının qorunması üzrə fəaliyyət

Qanunvericiliyimizə uyğun olaraq Azərbaycan Respublikası vətəndaşlarının hüquq və mənafelərinin müdafiəsi, onlara göstərilən konsulluq xidmətlərinin inkişaf etdirilməsi prioritet məsələlərdən biridir.

1990-cı illərdən etibarən Türkiyə Respublikasına mühacirət etmiş və hazırda orada yaşayan Azərbaycan Respublikası vətəndaşı olması ehtimal edilən şəxslər, o cümlədən onların Türkiyə ərazisində anadan olmuş ailə üzvləri ilə bağlı müvafiq iş davam etdirilib, digər tədbirlərlə yanaşı, müraciətlər əsasında 3900 ədəd ümumvətəndaş pasportu təqdim edilib.

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 oktyabr tarixli 2336 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Xarici ölkədə çətin həyat şəraitində olan yetkinlik yaşına çatmayan Azərbaycan Respublikası vətəndaşlarının repatriasiyası və reabilitasiyası Qaydaları"na uyğun olaraq 2025-ci il ərzində də Azərbaycan Respublikası vətəndaşlarının repatriasiyası davam etdirilib. 2025-ci il daxil olmaqla son illər ərzində İraq və Suriya Ərəb Respublikalarından 473 nəfəri uşaq və 64 nəfəri qadın olmaqla 537 nəfərin repatriasiyası həyata keçirilib.

Cari ilin iyun ayında İsrail Dövləti ilə İran İslam Respublikası arasında baş vermiş hərbi münaqişənin nəticəsi olaraq minlərlə Azərbaycan Respublikası və xarici ölkə vətəndaşlarının quru yolla İrandan ölkəmizə təhlükəsiz keçidinin təmin olunması üçün zəruri tədbirlər görülüb, 14.06.2025-07.07.2025-ci il tarixləri çərçivəsində 9 minə yaxın Azərbaycan Respublikası vətəndaşı və 82 xarici ölkə vətəndaşının ölkəmizə təxliyəsi həyata keçirilib.

İl ərzində Azərbaycan ilə Slovakiya, Venesuela, Kuba, İran, Estoniya, Oman, Monteneqro, Ukrayna, Böyük Britaniya, Belarus, Polşa, İraq, Birləşmiş Ərəb Əmirlikləri arasında konsulluq məsləhətləşmələri keçirilib.

2025-ci ildə konsulluq xidmətlərinin inkişafı, sadələşdirilməsi və rəqəmsallaşdırılması məqsədilə "Konsul leqallaşdırılması" informasiya sistemi istifadəyə verilib. Sistemin 2026-cı ildə inkişaf etdirilməsi və ölkəmizin əksər diplomatik missiyalarında istifadəyə verilməsi üçün mərhələli tədbirlərin görülməsi planlaşdırılır.

## Xarici siyasətin kommunikasiyası və analitik iş

2025-ci ildə ictimai diplomatiya, media və kommunikasiya, eləcə də Azərbaycanın xarici siyasəti ilə bağlı mövqe və məlumatların ictimaiyyətə çatdırılması istiqamətində aktiv fəaliyyət aparılıb.

İl ərzində Xarici İşlər Nazirliyi rəhbərliyinin yerli və xarici media orqanlarında müsahibələri yayımlanıb, 16 mətbuat konfransı təşkil olunmuş, Xarici İşlər Nazirliyinin rəsmi internet səhifəsində 485 açıqlama, o cümlədən rəsmi sosial media hesablarında 3000-dən artıq paylaşım dərc olunub. Ölkəmizin xarici ölkələrdəki diplomatik nümayəndəlik və konsulluqları tərəfindən anım günləri, habelə ölkəmiz üçün əlamətdar hadisələr ilə bağlı tədbirlər, konfranslar, seminarlar və sərgilər təşkil olunub, akkreditə olunduqları ölkələrin yerli mətbuatında 2680 məqalə dərc edilib, müsahibələr və verilişlər yayımlanıb.

2025-ci ildə 37 xarici ölkədən 506 xarici media nümayəndəsi Azərbaycan Respublikasına, o cümlədən işğaldan azad olunmuş ərazilərə səfər edib.

Xarici İşlər Nazirliyi tərəfindən təhlil işi davam etdirilib, aidiyyəti dövlət qurumlarımıza müvafiq məlumatlar təqdim olunub, nüfuzlu elmi-araşdırma mərkəzləri və təhlilçilər ilə əməkdaşlıq münasibətləri daha da inkişaf etdirilib, birgə layihə və tədbirlər təşkil olunub. İl ərzində qlobal forumlarda (Münhen Təhlükəsizlik Konfransı, Antalya Diplomatik Forumu, Bled Strateji Forumu, Dubrovnik Forumu, Astana Beynəlxalq Forumu, "Globsec"in 20-ci ildönümünə həsr olunmuş forum, Varşava Təhlükəsizlik Forumu, IISS Manama Dialoqu, Doha Forumu, Sir Bani Yas Forumu) iştirak edilib, beynəlxalq beyin

mərkəzləri və araşdırmaçılarla görüşlər (Avstriyada “Neytrallıq və Qoşulmama siyasəti” mövzusunda konfrans, Serbiyada “Cənubi Qafqaz: Əməkdaşlıq üçün çağırışlar və imkanlar” adlı dəyirmi masa, İspaniya universitetlərində enerji mövzusunda keçirilmiş konfranslar, “Azərbaycan tədqiqatları üzrə 4-cü Avropa konfransı”) keçirilib.

Xarici İşlər Nazirliyinin rəsmi nəşri olan “Diplomatiya Aləmi” jurnalının 20 illik yubileyi münasibətilə 8-9 iyul tarixlərində Bakı şəhərində konfrans və Şuşa şəhərində tədbirlər baş tutub. 17 dekabr tarixində isə Diplomatiya Aləmi” jurnalının COP29-a həsr olunmuş 61 saylı xüsusi buraxılışının təqdimatı məqsədilə dəyirmi masa formatında tədbir keçirilib.

Hesabat ili ərzində, XİN nəzdində fəaliyyət göstərən “Diplomatiya Könüllüləri” qrupuna yeni namizədlərin qəbulu ilə əlaqədar yaradılmış elektron sistem vasitəsilə qeydiyyat elan olunub, qeydiyyatdan keçən 1000 nəfərə yaxın namizəddən üzvlük üçün müəyyən olunmuş tələblərə uyğun gələn və müsahibədə yüksək nəticə göstərmiş 95 namizədin diplomatiya könüllüləri sıralarına qoşulması təmin edilib. Cari ilin dekabr ayından etibarən “Diplomatiya Könüllülərinin” Xarici İşlər Nazirliyinin 21 struktur bölməsində təcrübəsi başlayıb.

## Xarici İşlər Nazirliyinin kadr təminatı

İl ərzində Azərbaycan Respublikasının müvafiq diplomatik nümayəndəliklərində missiya rəhbərləri və səfir müavinləri təyinatları olub.

Diplomatik xidmətə qəbul edilmiş yeni əməkdaşların biliklərinin təkmilləşdirilməsi məqsədilə Xarici İşlər Nazirliyi və “ADA” Universiteti arasındakı əməkdaşlıq çərçivəsində Xarici Siyasət Proqramında (AFSP) 61 gənc diplomat təlim keçib.

Müxtəlif xarici dövlətlər tərəfindən diplomatik, iqtisadiyyat, idarəçilik, təhlükəsizlik və s. sahələr üzrə təşkil olunmuş təlim proqramlarında XİN diplomatlarının iştirakı təmin edilib.